# Analar belə olurmuş...

*hekayə*

*Əlibala Hacızadənin xatirəsinə*



**Aydın Tağıyev**

Qasım tay-tuşuna qoşulub Rusiyaya getmək qərarını açıb evdə ataanasına elə qətiyyətlə elan etdi ki, anası oğlunu yoldan etmək üçün nə qədər ağlayıb-sıtqadısa da heç bir xeyri olmayacağını başa düşəndə:

- Kənddə çox arvadın başında var, barı oradan mənim üçün qayıdanda bir tirmə-şal alıb gətirərsən, - deyə fağır-fağır xahiş etdi.

Bayaqdan bəri oğlunu bu səfərdən saxlamaq istəyən atası da hərbə-zorbasının heç bir xeyri-faydası olmayacağını görüb o da daha dinib-danışmadı.

Əlbəttə, anasının bu sözlərindən sonra bir balaca kövrələn Qasım da anasının boynunu qucaqlayıb təkcə tirmə yun şal yox, hətta jaket də alacağına söz verdi.

Ata - anasından xeyir-dua alan Qasım Rusiyaya beləcə yola düşmüşdü.

...Demə, Rusiyayada yel əsib qoz tökülmürmüş...

Aradan neçə il keçmişdi və o tirmə şalı almaq üçün Qasım da, az qala, qəpiyi qəpik üstünə yığıb qoymuşdu.

Qasım o tirmə şalı təzəcə almışdı ki, kəndlərindən belə bir teleqram gəldi: anan qəflətən vəfat edib, dəfnə özünü çatdır. Qasım özünü orabura vurdusa da vaxtında özünü kəndlərinə çatdırmağa bilet tapa bilmədi.

Əgər anasının dəfnində iştirak edə bilməmişdisə, daha kəndə əlimyandı qayıtmağın nə xeyri?

Beləcə aradan illər keçmişdi. Anasının ölümündən sonra Qasım kəndə, arabir məktub yazırdı. Nə soruşacaqdı ki...

Bir gün Qasım kənddəki bacısından belə bir məktub aldı ki, bəs kişi, yəni, ataları evlənib. Evə dul bir arvad gətirib. Qasım atasının bu hərəkətini, açığı özlüyündə anasının ruhuna xəyanət hesab etdi. Hərçənd ki, Qasım qız sarıdan gen-bol Rusiyaya kişi üçün qadınsız nə qədər çətin olduğunu elə özü də yaxşı bilirdi.

Atasının bu qəfil hərəkəti Qasıma ağır gəldi, yaman yer elədi. Və Qasım anasının başına örtə bilmədiyi o tirmə şalı heç olmasa qəbri üstünə sərmək üçün kəndə qayıtmaq qərarına gəldi.

* * *

Qışın ortaları idi. Yerdə dizəcən qar var idi, havada da adamı qılınc kimi kəsən sazaq, şaxta...

Hələ sübh erkən olsa da kəndə xəbər tez yayıldı ki, bəs Qasım kəndə qayıdıb.

Günortaya yaxın işsiz - gücsüz, boş - bekar kənd adamı Qasımgildə idi.

Kənd adamı axışıb gəlmişdi və adamların qabağına biş - düşə, köməyə qonum - qonşudan da gələnlər var idi. Yoxsa bu qədər qonaq - qaranın qabağına çıxmaq Qasımın analığının, bacısının işi deyildi.

Qasımın başı neçə illərdən bəri üzünü görmədiyi tay-tuşuna nə qədər qarışsa da, altdan- altdan gözü analığında idi.

Arvadın isə elə bil gözü ayağının altını görmürdü. Yeyib-içib hallananlar öz keflərində bir tərəfdə idi, bir kef var idisə o da analığında idi.

Bacısı qızlarla laqqırtı vururdu, analığı isə cani-dildən əl-ayaqda idi. Analığının onun bu qəfil gəlişinə guya ki, doğma anasından, bacısından çox sevinib şadlanması Qasıma saxta gəldi və bu, ona pis təsir etdi...

* * *

Qonaqlar gecə dağılışdılar. Yorğun Qasım divanda dərin düşüncələr içərisində tənha oturmuşdu. Analığı ona yaxınlaşıb:

- Daha gecdir a bala, - dedi, - sən də yol gəlib yorulmusan. Otağında sobanı qalamışam... Yatıb dincəlsən yaxşı olar...

Analığının səsindəki bu istilik, hərarət elə bil nədənsə Qasımı üşütdü...

Anasının vəfatından sonra tənha qalmış atasının qulluğunda duran, vaxtlı-vaxtında yeməyini-içməyini verən, ocağının odunu yandıran bu qadına necə müraciət edəcəyini Qasım birdən-birə özlüyündə ölçüb-biçməyə başladı. Hətta Qasımın ürəyindən lağ-lağı etmək də keçdi...

Beləcə fikir-xəyal içində Qasım soyunub yerinin içinə girdi. Sobada yanan odunların ətri və istisi Qasımın canına yayılıb ona ləzzət verdi. Bu rahatlıq nə qədər xoş idisə, Qasım hiss edirdi ki, günü sabah analığına necə müraciət edəcəyi fikri ona rahatlıq vermirdi. Onu birdən-birə gülmək tutdu.

Yadına dönə-dönə baxdığı məşhur “Ögey ana” filmi düşdü. Xeyirxah, nəcib Dilarə xanım cani-dildən, əldən-ayaqdan getdiyi oğulluğu İsmayılın ona “Ana” deməsi üçün nələr etmir ki?!. Canıyananlığı bir yana, hələ İsmayıl üçün aldığı qol saatı, oyuncaq?..

Görəsən, bəs analığı necə Qasımı onu ögey yox, doğma bilməsi üçün nələr fikirləşib?..

Beləcə fikirləşə-fikirləşə gah kinayə ilə qımışan, gah da atasını anasına vəfasızlıqda qınayan Qasım hiss etdi ki, deyəsən, sobadakı odunlar yanıb qurtarmaqdadır. Ertədən sobanın yanına qalaq-qalaq doğranmış odunlar qoyulmuşdu. Uzun qış gecəsi idi və səhərin də açılmasına hələ xeyli qalırdı.

Və Qasım da soyuqdan donmamaq üçün əringənlik etməməli idi, gərək yerindən qalxıb sobanı bir də yaxşı-yaxşı qalayaydı.

Qasım elə bu fikirlə yerindən qalxmaq, qalın yun yorğanı üstündən bir balaca yana atmaq istəyirdi ki, o çöl tərəfdən nə qədər ehtiyatla, ehmalca atılsa da ayaq səsləri eşitdi.

Üstü bir balaca açıq olsa da, guya yuxulu imiş kimi Qasım yorğanı üstünə çəkmədi. Hətta uzun bir xorna çəkdi. Ancaq gözlərini balaca yarı-yumulu araladı. Analığı idi.

Qadın arəstə addımlarla çarpayıya yanaşıb nəvazişlə onu şirin yuxudan oyadacağından ehtiyat edirmiş kimi yorğanı üsulluca üstünə çəkib basdırdı.

Qasımın gözləri qapalı olsa da hiss edirdi ki, analığı başının üstündə dayanıb ona baxır...

Sonra analığı eləcə ustufca, Qasımı yuxudan oyadacağından ehtiyat edirmiş kimi asta - asta odunları sobaya atdı. Alışdığına arxayın olduqdan sonra gəldiyi kimi də səssiz-səmirsiz otaqdan çıxdı.

Qasım məəttəl qalmışdı. Qadın sobada odunların yanıb qutardığını haradan hiss edibmiş ki, öz isti yerindən olub onun yatdığı otağa keçdi?!.

Qasım elə bil birdən diskindi. “Bəlkə... analar elə belə olurmuş...”

Haçandan - haçana yuxuya gedən Qasım səhər çamadanını açıb anası üçün aldığı tirmə yun şalı çıxartdı...

Kaspi.-2017.-4-6 fevral.-S.20.